**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazma hüququnda*

# ABŞ-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ CƏNUBİ QAFQAZ REGIONUNUN YERİ VƏ ROLU

| | |
|---|---|
| İxtisas: | 5901.01 - Beynəlxalq münasibətlər |
| Elm sahəsi: | Siyasi elmlər |
| İddiaçı: | **Lalə Abbas qızı Talıbova** |

fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Adil Mirabdulla oğlu Mirabdullayev**

siyasi elmlər üzrə fəlsəfə doktoru,
**Rəşad Əsəd oğlu Sadıqov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Afət Ağa Əli qızı Səfərova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəznində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi Seminarın sədri: siyasi elmlər doktoru, professor,
**Elçin İldırım oğlu Əhmədov**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin sonu böyük geosiyasi dəyişikliklər və yeni müstəqil dövlətlərin yaranması ilə tarixə düşdü. Cənubi Qafqaz regionu əlverişli geosiyasi mövqeyinə və Xəzərin karbohidrogen ehtiyatlarına çıxış imkanlarına görə həmişə regional və dünya aktorlarının diqqətini cəlb edib. Əsrin əvvəllərində, I Dünya müharibəsi illərində və müharibədən sonrakı ilk illərdə əlverişli coğrafi-strateji mövqeyinə, zəngin karbohidrogen ehtiyatlarına görə böyük güclərin uğrunda amansız mübarizə apardığı Cənubi Qafqaz yenidən qlobal və regional güclərin mübarizə meydanına çevrildi. Təhlükəsizlik amillərini əsas gətirərək regionu nüfuz dairəsində saxlamağa çalışan Rusiya ilə Qafqaz və Mərkəzi Asiyanı özünün qlobal dünya liderliyi üçün önəmli hesab edən ABŞ arasında geosiyasi mübarizə başladı. Bu da öz növbəsində müstəqilliyini yenicə bərpa etmiş Cənubi Qafqaz dövlətlərinin xarici siyasətinə təsir göstərən başlıca amillərdən birinə çevrildi. Məhz bu cəhətdən ABŞ-Rusiya münasibətlərində Cənubi Qafqaz regionunun yerinin və rolunun tədqiqi aktuallıq kəsb edir.

Qeyd etmək lazımdır ki, mövzunun müxtəlif istiqamətləri Azərbaycandan və xarici ölkələrdən olan bir çox müəlliflər tərəfindən araşdırılmışdır. Lakin iki böyük dövlət arasında geosiyasi mübarizənin hələ də davam etdiyini, bu güc mərkəzlərindən heç birinin Cənubi Qafqazı tamamilə öz nüfuz dairəsinə keçirə bilmədiyi şəraitdə mövzu aktuallığını qorumaqdadır. Region uğrunda mübarizə aparan ABŞ və Rusiya ilə yanaşı digər qlobal geosiyasi və regional oyunçuların da Cənubi Qafqaz siyasətində fəallaşması məsələyə fərqli baxış bucağından yanaşılmasını zərurətə çevirir. Bununla da regionda baş verən münaqişələri regional və dünya güclərinin Qafqaz üzərində dominantlıq uğrunda dolayı mübarizəsi kimi də şərh etmək olar.

Sovet irsi, silahlı qiyamlar, regionun müxtəlif xalqları arasında gərginlik, böyük, lakin dünya bazarına çıxışı olmayan Xəzər ehtiyatları, Moskvanın regionda post-imperiya siyasətini həyata keçirməsi və ABŞ-ın maraqları – bunlar hamısı Qafqazın mübarizə mərkəzinə çevrilməsinə gətirib çıxardan amillərdəndir. ABŞ Cənubi Qafqazda nüfuz uğrunda mübarizəyə başladı və Rusiyanın əsas rəqibinə çevrildi. Onu da qeyd etmək vacibdir ki, bu gün Cənubi Qafqazın strateji

əhəmiyyəti şübhəsizdir və regionun bu artan beynəlxalq nüfuzu mürəkkəb ictimai-siyasi proseslərin daha dərindən izlənilməsini tələb edir.

Nəzərə almaq lazımdır ki, XX əsrin sonlarından ötən dövr ərzində, xüsusən XXI əsrin ilk rübündə Cənubi Qafqaz dövlətlərinin - Azərbaycan Respublikasının, Gürcüstanın və Ermənistanın xarici siyasətində də istiqamət dəyişiklikləri baş vermişdir. Əgər SSRİ-nin süqutundan sonra Cənubi Qafqazın qlobal qovşağa çevrilmək potensialından bəhs olunurdusa, hazırda bu potensial reallığa çevrilmişdir. XX əsrin 90-cı illərində Xəzər hövzəsinin böyük, lakin dünya bazarlarına çıxışı olmayan neft-qaz ehtiyatlarının necə daşınması müzakirə edilirdisə, artıq bu ehtiyatları dünya bazarlarına çıxaran boru kəmərləri mövcuddur və bu kəmərlər qlobal enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayır. Rusiya ərazisindən yan keçməklə Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarına çıxışın əldə edilməsi ilə bağlı ABŞ-ın planları reallaşmışdır. Lakin Cənubi Qafqaz heç də ABŞ-ın tək tərəfli nüfuz dairəsinə çevrilməmişdir. Burada Türkiyə və İran kimi regional oyunçuların da iştirakı ilə tamamilə fərqli geosiyasi konfiqurasiya formalaşmışdır. Hərbi və təhlükəsizlik məsələlərində ABŞ-ın müttəfiqi, iqtisadi və maliyyə məsələlərində isə rəqibi olan Avropa İttifaqının da regional proseslərə özünəməxsus yanaşması vardır.

Mövzunun tədqiqi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan dissertasiya işində aparılan təhlillər zamanı Azərbaycan Respublikasının bu proseslərdəki yerinə və roluna xüsusi diqqət yetirilmişdir. Məlumdur ki, qonşu Gürcüstanla sıx tərəfdaşlıq şəraitində Azərbaycan regionun inkişafında əsas hərəkətverici qüvvəyə çevrilmişdir. Buna səbəb Azərbaycanın Cənubi Qafqazın üç ölkəsi arasında özünün karbohidrogen ehtiyatlarına sahib olması, Xəzər hövzəsinə, həm də Mərkəzi Asiyaya çıxışı olan yeganə ölkə olmasıdır. Azərbaycanın gücünün və nüfuzunun artmasında bu amillər əhəmiyyətli rol oynamışdır. Bu gün Azərbaycanın iştirakı olmadan regionda hər hansı irimiqyaslı layihənin adını çəkmək mümkün deyil. Məhz bu məqam nəzərə alınaraq dissertasiya işində neft-qaz layihələrinin əhəmiyyəti, onlara nəzarət uğrunda mübarizə, bu mübarizənin Cənubi Qafqaz dövlətlərinin siyasi və iqtisadi vəziyyətinə təsirləri ətraflı şəkildə araşdırılmışdır.

Məlumdur ki, regionun ən mühüm problemi həll olunmamış münaqişələrdir. Dissertasiya işində ABŞ və Rusiyanın Cənubi Qafqazdakı münaqişələrdəki roluna, onların siyasi-diplomatik vasitələrlə tənzimlənməsi istiqamətində addımların effektiv olmamasının səbəblərinə də toxunulmuşdur.

Daim davam edən siyasi proseslər və münaqişələrin kəskinləşməsi, sabitliyin pozulması ilə əlaqədar olaraq, dünya dövlətlərinin hər birinin regionda yürütdüyü siyasətin təhlili müasir dövrün xüsusi aktual mövzusu olaraq qalmaqdadır.

Mövzunun aktuallığı bir sıra digər amillərlə də əsaslandırılır:

- ABŞ və Rusiyanın xarici siyasət konsepsiyalarının mahiyyətinin dərk edilməsi, bu dövlətlərin xarici siyasətində strateji və taktiki xarakterli dəyişikliklərin qiymətləndirilməsi və proqnozlaşdırılması baxımından;
- bu dövlətlərin Cənubi Qafqaz regionundakı münaqişələrə yanaşmasına təsir göstərən amillərin müəyyənləşdirilməsi, onların siyasi-diplomatik vasitələrlə tənzimlənməsi prosesində iştirakının məqsədəuyğunluğunun qiymətləndirilməsi baxımından;
- müasir dövrdə cərəyan edən proseslər də nəzərə alınmaqla mövzunun hərtərəfli və sistemli şəkildə tədqiqi baxımından.

Qeyd edildiyi kimi, mövzunun aktuallığı indiyə qədər həm ölkəmizdə, həm də xarici ölkələrdə bu istiqamətdə çoxsaylı tədqiqatların aparılmasına səbəb olmuşdur. Tədqiqat prosesində siyasətçilər və sahə tədqiqatçıları tərəfindən yazılmış əsərlər toplanılmış, sistemləşdirilmiş və öyrənilmişdir. Eyni zamanda mövzunun müxtəlif aspektlərinin öyrənilməsinə imkan verən mənbələr üzərində iş aparılmışdır.

ABŞ və Rusiyanın Cənubi Qafqaz siyasətinin mahiyyətinin aydın şəkildə başa düşülməsi üçün Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin nitqləri və çıxışlarının toplanıldığı çoxcildlik əsərləri[1] əsas fundamental mənbələrdən biridir. Bu kitablar Azərbaycan Respublikasının dövlətlərarası münasibətlərinin və xarici siyasətinin formalaşmasının fundamental prinsipləri, dövlətin enerji siyasətinin

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev.–Bakı: Azərnəşr, – c. 1. –1997. –612 s.; –c. 12. –2004. –432 s.; –c. 25. –2008. –520 s.

əsas prinsipləri, neft müqavilələri, sazişlər, onların əhəmiyyəti, xarici korporasiyalarla əməkdaşlığa həsr olunmuşdur.

Məlumdur ki, 1993-cü ildən sonrakı mərhələdə Azərbaycanın enerji diplomatiyasının, neft strategiyasının həyata keçirilməsində İlham Əliyevin çox böyük rolu olmuşdur. 2003-cü ildən sonrakı mərhələdə isə Prezident İlham Əliyev Azərbaycanın xarici siyasətinin müəyyənedicisi olmaqla yanaşı, həm də Cənubi Qafqaz siyasətində ən önəmli siyasi lider olmuşdur. Tədqiqat işində regional proseslərin təhlili aparılarkən Azərbaycan Prezidenti İlham Əliyevin müəllifi olduğu "Azərbaycanın Xəzər nefti"[2], həmçinin Azərbaycan dövlətinin siyasi konsepsiyasını və xarici siyasət kursunu əsaslı şəkildə əks etdirən çoxcildliyində[3] əks olunmuş materiallar geniş şəkildə istifadə olunmuşdur. Neft sənayesinin yeni formalaşması dövrünün ətraflı təhlili, Qərb dövlətləri, eləcə də Rusiya ilə çoxtərəfli danışıqlar çərçivəsində Azərbaycanın neft və qaz yataqlarından boru kəmərlərinin marşrutlarının istiqamətləri üzrə qərarların qəbul edilməsinin təfərrüatları məhz bu kitablardakı məlumatlar əsasında təhlil edilmişdir.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra həm ABŞ, həm də Rusiya Federasiyası ilə münasibətləri özünəməxsus xarakter daşımışdır. Bu siyasət həm 2018-ci ilə qədər birtərəfli şəkildə Rusiyanın forpostuna çevrilmiş Ermənistanın, həm də 2003-cü ildən sonra ABŞ və Aİ-nin regiondakı dayaq nöqtəsinə çevrilmiş Gürcüstanın siyasətindən əsaslı şəkildə fərqlənmiş, daha balanslaşdırılmış xarakter daşımışdır. ABŞ və Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının münasibətlərinin formalaşmasını təhlil edən professor Musa Qasımlının[4] əsərlərində ABŞ-ın Azərbaycan hökumətinə dövlət səviyyəsində yardımına veto qoyan 907-ci düzəlişlə bağlı yaranan çətinliklər, ikitərəfli münasibətlərə kölgə salan bu düzəlişin ləğvi

---

[2] Алиев, И.Г. Каспийская нефть Азербайджана / И.Г.Алиев. –Москва: Известия, –2003. –712 с

[3] Əliyev, İ.H. İnkişaf – məqsədimizdir: [111 cilddə] / İ.H.Əliyev. –Bakı: Azərnəşr, – c. 73. –2018. –400 s.

[4] Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991–2003): [2 cilddə] / M.C.Qasımlı. –Bakı: Mütərcim, –h. 2. –2015. –640 s.

məqsədi ilə ümummilli liderin apardığı diplomatik danışıqların mahiyyətini ətraflı tədqiq etmişdir.

Uzun müddət Azərbaycan Respublikasının ABŞ-da fövqəladə və səlahiyyətli səfiri olmuş görkəmli diplomat Hafiz Paşayevin[5] kitablarında ABŞ və Azərbaycan arasında ikitərəfli münasibətlərin formalaşması, bu əlaqələrin inkişafında yaranan maneələr, 907-ci düzəlişin ləğvi uğrunda gedən siyasi mübarizə, birgə işlənmiş enerji layihələri ətraflı tədqiq edilib. Regional enerji layihələrinin inkişafı mövzusu, xüsusən də Bakı-Tbilisi-Ceyhan layihəsi üzrə ABŞ-la aparılan danışıqlar geniş şəkildə tədqiq edilib.

Professor Elman Nəsirovun[6] bir sıra əsərləri ABŞ-ın Cənubi Qafqazdakı maraqları və onu reallaşdırma vasitələrinin geniş tədqiqinə həsr olunmuşdur. Bu əsərlərdə ABŞ-la Azərbaycan arasında siyasi münasibətlər, 2001-ci il hadisələrindən sonra atılan addımlar, digər Cənubi Qafqaz dövlətləri və Azərbaycanın hökumətlərinin beynəlxalq antiterror əməliyyatlarına dəstəyi aydın şəkildə təsvir edilmişdir .

Regiondakı münaqişələrin araşdırılmasında, xüsüsən də Ermənistanın təcavüzkar siyasətini ifşa edən, Qarabağ ətrafında baş verən hadisələrinin xronikasının təhlilini, Rusiyanın bu münaqişədə yeri və rolunu təqdim edən professor Elçin Əhmədovun[7] əsərlərində ətraflı şəkildə işıqlandırılıb. Bu tədqiqatlarda əksini tapmış məlumatlar münaqişənin həll edilməsindən əvvəl və sonra ABŞ və Rusiyanın münaqişələrlə bağlı mövqeyini müqayisəli təhlil etməyə imkan verir.

Ermənistanın keçmiş prezidentləri Robert Koçaryanın[8], Levon Ter-Petrosyanın[9] Ermənistanın Cənubi Qafqazdakı rolu və yeri, eləcə

---

[5] Paşayev, H.M. Bir səfirin manifesti / H.M. Paşayev. –Bakı: Şərq-Qərb, –2007. – 246 s.; Azerbaijan in Global Politics: Crafting Foreign Policy / H.M.Pashayev. – Baku: ADA, –2009. –115 p

[6] Nəsirov E., ABŞ və dünya 11 Sentyabrdan sonra. / E. Nəsirov, - Bakı:Adiloğlu, - 2003, -262 s.

[7] Əhmədov, E.İ. Ermənistanın Azərbavcana təcavüzü: təhlili xronika (1987-2011) / E.İ.Əhmədov. –Bakı:EİF, –2012. –912 s.

[8] Кочарян Р. С. Жизнь и свобода. Автобиография экс-президента Армении и Карабаха / Р. С. Кочарян -Москва: Альпина Диджитал, -2019. -276 с.

[9] Ter-Petrossian L. Armenia's Future, Relations with Turkey, and the Karabagh Conflict// Edited by Arman Grigoryan/ Armenian National Congress, US: Palgrave Macmillan, -2018; -p.62

də Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesindəki rolu barədə fikirləri maraqlı, eyni zamanda birmənalı deyil.

SSRİ-nin dağılmasından sonra Cənubi Qafqazdakı münaqişələrin mənşəyi və onların həllinin mümkün yolları da xarici müəlliflər arasında geniş nəzərdən keçirilib və araşdırılib. Bu kontekstdə təhlillər aparan xarici ölkə müəllifləri arasında Tomas Qolts[10], Tomas de Vaal[11], həmçinin Svante Kornell[12], Con Mareska[13] və s. araşdırmaları diqqəti cəlb edib. S. Telbotun əsərləri soyuq müharibə bitdikdən sonra ABŞ və Rusiya arasındakı siyasi, iqtisadi, hərbi sahələrdə münasibətlərə həsr edilmişdir[14]. Cənubi Qafqazda ABŞ-ın mövcud maraqları Rusiya, Türkiyə, İran kimi dövlətlərin maraqları ilə müqayisədə qiymətləndirilməsi məqsədilə Henri Kissincer[15] və Zbiqnev Bjezinski[16] kimi məhşur müəlliflərin əsərlərində qoyduqları yanaşmalar əsas götürülmüşdür.

Regionda enerji siyasətinin öyrənilməsində, neft-qaz ehtiyatlarının nəqli yollarının seçilməsində yaranan problemlərin

---

[10] Qoltz T. Azərbaycanın gündəliyi: neftlə zəngin, müharibə dağıntıları yaşamış postsovet respublikasında dəliqanlı jurnalistin sərgüzəştləri /T. Qolts -Bakı: Çaşıoğlu, -2016. -535 s.

[11] Ваал де Т. Черный сад. Армения и Азербайджан между миром и войной. Перевод: Олег Алякринский / Т. Ваал - Нью-Йорк - 2005. -251 с.

[12] Cornell S. E. Western strategy for the Caucasus / Cornell S., Starr F., Tsereteli M. – Washington-Central Asia-Caucasus Institute & Silk Road Studies Program – A Joint Transatlantic Research and Policy Center Johns Hopkins University-SAIS, Silk Road Paper, -2015. - p.17

[13] Maresca J. Special report: war in the Caucasus, a proposal for settlement of the conflict over Nagorno-Karabakh / J. Maresca -Washington:USIP. -1994. -7 p.

[14] Тэлботт С., Измена в Кремле. Протоколы тайных соглашений Горбачева с американцами / С. Тэлботт. – Москва:Алисторус. -2012. -с. 181;
The Russia Hand, A Memoir of Presidential Diplomacy / S. Talbott -New York: Random House, - 2002. – 531p.

[15] Киссинджер Г., Нужна ли Америке внешняя политика? / Г. Киссинджер. - Москва: Издательство АСТ. -2016. -391 с.

[16] Бжезинский З. Великая Шахматная доска / З. Бжезинский. -Москва: Международные отношения. -1998. -128 с.

araşdırılmasında Əli Həsənovun[17], Sergey Jiltsovun[18] və digər yerli və xarici siyasətçilərin kitabları mühüm mənbə kimi istifadə olunub.

Rusiya xarici siyasətinin Cənubi Qafqaz vektoru onun ABŞ-la münasibətləri kontekstində təhlil edilərkən mənbə kimi bu ölkədə qəbul edilmiş doktrinalar, qanun layihələri, prezidentlərin çıxışları, milli təhlükəsizlik strategiyaları təhlil üçün əsas götürülmüşdür. Rusiyanın siyasətini araşdıran müəlliflərdən Kamaluddin Hacıyev[19], Noam Çomsky[20], Stroub Talbot[21] kimi müəlliflərin əsərlərinə istinad edilib, mövzunun müəyyən məsələləri ətraflı araşdırılmışdır. Rusiyanın vasitəçilik missiyasının rəhbəri, habelə 1992-1996-cı illərdə ATƏT-in Minsk Qrupunun Rusiyadan olan həmsədri Vladimir Kazimirovun kitabı[22] ziddiyyətli məlumatlara malikdir. Münaqişə, müharibə, onun sülh yolu ilə həlli məsələlərinə həsr olunmuş kitab ermənipərəst mövqenin qərəzliliyi və açıq təbliği ilə seçilir. V. Kazimirov Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinin xüsusiyyətlərini qeyri-obyektiv mühakimələr vasitəsilə təsvir edib, xüsusən də hər iki tərəfi, Azərbaycanın beynəlxalq humanitar normaların kobud şəkildə pozulmasında, beynəlxalq təşkilatların göstərişlərini yerinə yetirilməməsində ittiham edib.

Dissertasiya işinin yazılması zamanı ABŞ və Rusiyada qəbul edilmiş hüquqi sənədlər, imzalanmış müqavilələr, BMT qətnamələri,

---

[17] Həsənov Ə. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti / Ə. Həsənov -Bakı:Zərdabi LTD. -2016. -296 s.; Həsənov, Ə. Azərbaycanın geosiyasəti: dərslik /Ə. Həsənov; elmi red. E.Nəsirov; red. V.Səlimov; Azərb. Resp. Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.- Bakı: Zərdabi LTD MMC, -2015. -1055 s.

[18] Жильцов С. Трубопроводная архитектура в Каспийском регионе: итоги и перспективы // -Москва: Журнал PolitBook. – 2015. № 2. -с. 114-132. Жильцов. С. Каспийский регион: основные направления трубопроводов// Дипломатическая академия МИД России. -1992. -с. 10

[19] Гаджиев К. Геополитика Кавказа / К. Гаджиев –Москва:Международные отношения. -2003. -464 с .

[20] Chomsky N. Who rules the World /N. Chomsky - London: Hamish Hamilton. – 2016. - 336 p.

[21] Talbott S. A Russian “Reset Button” Based on Inclusion // -Washington: Brookings Institution. -2009 February 23, -p. 22

[22] Казимиров В. Мир Карабаху. Посредничество России в урегулировании нагорно-карабахского конфликта/ В. Казимиров -Москва: Международные отношения. - 2009. -456 с.

qanunvericilik aktları, dövri mətbuat materialları, arxiv sənədlərindən istifadə edilmişdir. ABŞ, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan hökumətləri arasında müxtəlif illərdə imzalanmış ikitərəfli müqavilələr, sazişlər, memorandumlar, bəyannamələr tədqiqata cəlb olunmuşdur. Bu işin hazırlanmasında öyrənilən, dissertasiya mövzusuna müxtəlif dərəcədə aid olan materiallar bir daha təsdiqləyir ki, Cənubi Qafqazdakı hadisələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinin öyrənilməsi təkcə regional konteksti deyil, həmçinin iki böyük gücün qarşılıqlı münasibətlərin mürəkkəbliyi prizmasından anlamağa imkan verir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti ABŞ və Rusiya arasında münasibətlərdə Cənubi Qafqaz regionunun yeri və roludur. ABŞ və Rusiyanın Cənubi Qafqaz siyasətinin formalaşmasına təsir göstərən amillər, onların regiondakı geosiyasi maraqları, ticarət-iqtisadi əlaqələrinin prioritetləri, Azərbaycan, Ermənistan və Gürcüstanla ikitərəfli münasibətlərinin nəzəri və praktiki aspektləri, bölgədə vaxtilə mövcud olmuş Ermənistan-Azərbaycan, habelə hazırda davam edən Abxaziya və Cənubi Osetiya münaqişələrinə dair mövqeyi tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi ABŞ və Rusiyanın bu region dövlətlərinə münasibətdə siyasətinin hərtərəfli tədqiq edilməsidir. Mövzunun çoxşaxəliliyi, hadisə və proseslərin zənginliyi nəzərə alınaraq başlıca diqqət vacib əhəmiyyət daşıyan məqamlara yönəldilmişdir. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- SSRİ-nin dağılmasından sonra Cənubi Qafqazda ABŞ və Rusiyanın maraqlarının yaranmasının elmi-nəzəri əsasları tədqiq olunmuşdur;
- Hər iki dövlətin regionla bağlı qəbul edilmiş doktrina və strategiyaları öyrənilib, bu ölkələrin regiona geosiyasi təsirinin qiymətləndirilməsi aparılmışdır;
- Cənubi Qafqaz regionunun hər bir müstəqil dövləti ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələrin qurulmasında ABŞ və Rusiyanın rolu müəyyən edilmişdir;
- Xəzər dənizinin enerji layihələrinin ABŞ və Rusiya üçün əhəmiyyəti, iki dövlətin regional siyasətinin Azərbaycanın enerji diplomatiyasına və onun balanslaşdırılmış siyasətinin

təsiri, bu sahədə real vəziyyəti və əməkdaşlığın perspektivləri öyrənilmişdir;
- Cənubi Qafqaz ölkələrinin ABŞ və Rusiya ilə ayrı-ayrılıqda ikitərəfli ticarət-iqtisadi əlaqələrinin başlıca istiqamətləri tədqiq edilmişdir, habelə SSRİ-nin dağılmasından sonra ABŞ-ın Rusiyaya və bütün region ölkələrinə humanitar yardım göstərməsi ilə bağlı məsələləri tədqiq olunmuş, bu sahədə mövcud problemlər müəyyən edilmiş və mövcud vəziyyətdən çıxış yolları təklif edilib;
- Cənubi Qafqazda münaqişələrin nizamlanmasında ABŞ diplomatiyasının rolu öyrənilmiş, regiondakı münaqişələrə Rusiyanın təsir imkanları araşdırılmışdır.

**Tədqiqat metodları.** İşin tədqiqat metodologiyası qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun formalaşmışdır. Əvvəla, mövzunun tədqiqi prosesində inteqrasiya olunmuş yanaşmadan - siyasi təhlil, sintez, ümumiləşdirmə, müqayisə, deduksiya və induksiya metodlarından istifadə edilmişdir ki, onlarsız kompleks təhlilin aparılması mümkün deyildir. Həmçinin, sistemli təhlil, müqayisəli təhlil və digər üsullardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** bunlardır:
- SSRİ-nin süqutundan sonrakı ilk illərdə ABŞ və Rusiya arasında qısamüddətli əməkdaşlıq mühiti yaransa da, sonradan bu proses qarşılıqlı ittihamlar fonunda zəifləmişdir. Hazırda Cənubi Qafqazda üstün mövqe qazanmaq uğrunda rəqabətə və maraqlar uğrunda mübarizə davam edir;
- NATO-nun davamlı genişlənməsi və Rusiya sərhədlərinə yaxınlaşmaq niyyətləri Cənubi Qafqaz dövlətlərinin əhəmiyyətini həm ABŞ, həm də Rusiya üçün artırır, bu isə öz növbəsində region dövlətlərinə iki güc mərkəzləri arasında manevr etmək məcburiyyəti yaradır;
- Uzun illər ərzində ABŞ Cənubi Qafqazda, xüsusilə enerji sektorunda iqtisadi iştirakını gücləndirərək, eləcə də yumşaq güc elementlərindən istifadə edərək Rusiyanı həyati təhlükəsizlik maraqları olan bu regiondan sıxışdırmağa çalışmışdır və bu istiqamət əslində hazırda da üstün istiqamət olaraq qalmaqdadır;

- ABŞ və Aİ-nin simasında kollektiv Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalar, xüsusən bu ölkədən təbii qazın alınmasına qoyulan qadağalardan sonra Cənubi Qafqazın karbohidrogen ehtiyatlarına ehtiyac artmışdır. Rusiya üçün isə Cənubi Qafqazın hazırki əhəmiyyəti ondan ibarətdir ki, bu ölkə Qərbin sanksiyaları ilə üzləşdiyi şəraitdə region ölkələrini əsas ticarət-iqtisadi tərəfdaş kimi görür, idxal-ixrac əməliyyatlarını həm bu ölkələrlə, həm də bu ölkələrin vasitəsilə həyata keçirməyə çalışır.

**Tədqiqatın elmi yeniliyi.** Bu problem kompleks şəkilində ilk dəfə hərtərəfli araşdırılmışdır. Mövzunun aktuallığını nəzərə alaraq, elmi yenilikləri bəzi tezislər üzrə konkretləşdirmək olar. Belə ki, tədqiqat işində ilk dəfə olaraq:

- əməkdaşlığın nəzəri əsasları hərtərəfli öyrənilmiş, Cənubi Qafqaz dövlətlərinə münasibətdə ABŞ və Rusiya arasında siyasi sahədə münasibətlərin real praktiki vəziyyəti qiymətləndirilmişdir;
- Cənubi Qafqaz regionunun hər üç dövlətinin iqtisadi problemlərinin mahiyyəti açılır;
- enerji kəmərlərinin çəkilməsi məsələləri və ABŞ və Rusiya arasında boru kəmərləri marşrutları uğrunda mübarizə, onların geosiyasi və geoiqtisadi əhəmiyyəti öyrənilib;
- Rusiya və ABŞ-ın Cənubi Qafqazın müstəqil dövlətlərinin hər biri ilə ticarət-iqtisadi sahədə əlaqələrin formalaşması və dinamikasının hərtərəfli təhlili aparılmış, əlaqələrin inkişafı üçün gələcək proqnozlar irəli sürülmüşdür;
- ABŞ və Rusiya tərəfindən regionda münaqişələrin və təhlükəsizlik problemlərinin həlli üçün addımlar təklif edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticələridən bu sahədə gələcək tədqiqatlar zamanı, dərsliklərin, elmi məqalələrin və ya dissertasiyaların hazırlanmasında istifadə edilə bilər. Praktiki baxımdan bu işin Cənubi Qafqazda geosiyasi maraqlarını öyrənməyə çalışan tədqiqatçılar, diplomatlar, habelə ABŞ, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistanın xarici siyasətini öyrənmək istəyənlər üçün faydalıdır.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları həm Azərbaycanda "Geostrategiya", "Sivilizasiya", "Dövlət İdarəçiliyi", "Qafqazşünaslıq" kimi jurnallarının müxtəlif nömrələrində, həmçinin Rusiyada "Вопросы Политологии", "Научный Аспект", jurnallarında çap olunmuş on yeddi elmi məqalə və tezislərdə əksini tapmışdır. Dissertasiya işində irəli sürülən müddəalar müxtəlif elmi-təcrübi konfranslarda və beynəlxalq forumlarda müzakirəyə çıxarılmışdır, həmçinin müxtəlif beynəlxalq və respublika konfranslarında məruzə edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

**İşin strukturu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, yeddi bölmə, nəticə və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işi 158 səhifədən (223.976 işarə) ibarətdir. Giriş hissə 19.930, birinci fəsil 51.816, ikinci fəsil 70.739 , üçüncü fəsil 75.764, nəticə hissəsi isə 6.416 işarə həcmindədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri qeyd edilmiş, irəli sürülən müddəalar, əldə edilən nəticələrin elmi yeniliyi və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

**"Cənubi Qafqazda ABŞ-ın və Rusiyanın geosiyasi maraqları"** adlanan **birinci fəsildə** hər iki güc mərkəzinin region siyasətinin nəzəri və praktiki əsasları tədqiq edilmişdir.

Birinci yarımfəsil **"ABŞ və Rusiyanın Cənubi Qafqazda xarici siyasətinin nəzəri məsələləri"** adlanır. Məlumdur ki, Sovet İttifaqının dağılmasından sonra ABŞ-ın xarici siyasət konsepsiyasında yeni istiqamətlər meydana çıxmış, Rusiyanın xarici siyasət və təhlükəsizlik konsepsiyası isə geosiyasi şəraitin şərtlərinə uyğun olaraq yenidən formalaşdırılmışdır. "Soyuq müharibə"nin formal olaraq başa çatmasından sonra ABŞ və Rusiya arasında münasibətlər yeni səviyyəyə yüksəldi – ABŞ artıq Rusiyanı öz maraqlarına təhlükə hesab etmirdi, zəifləmiş Rusiya isə ABŞ-a müqavimət göstərmək iqtidarında

deyildi. XX əsrin 90-cı illərinin sonlarına qədər ABŞ və Rusiya tərəfdaşlıq və əməkdaşlıq münasibətlərini inkişaf etdirmək istiqamətində addımlar atsalar da, XXI əsrin ilk illərindən etibarən vəziyyət dəyişdi. Rusiya ABŞ-ın strateji əhəmiyyətli ərazilərdə nüfuzunun və hökmranlığının güclənməsinə imkan verməmək üçün addımlar atmağa başladı. Bu prosesin birtərəfli şəkildə olmadığı da qeyd edilməlidir. Rusiyanın müqavimətinin güclənməsi həm də ABŞ-ın tədricən artan təzyiqləri ilə bağlı olmuşdu.

ABŞ-ın 1994-cü və 1998-ci illərdəki milli maraq strategiyalarının məzmununda ciddi fərqlər var idi. Belə ki, 1994-cü il strategiyasında yalnız "xaricdə demokratiyanın dəstəklənməsindən"[23] bəhs edilmişdisə, 1998-ci il strategiyasında bu ifadə "başqa ölkələrdə demokratiyanın yaradılması"[24] ilə əvəzlənmişdi. Bu da, ABŞ beynəlxalq hüquq normalarını pozaraq, başqa ölkələrin daxili siyasətinə qarışmaq üçün özünə əsas verirdi.

Rusiyada Vladimr Putin hakimiyyətə gəldikdən sonra xarici siyasətdə əhəmiyyətli dəyişikliklər baş verdi. Rusiyanın fəallaşdığı şəraitdə ABŞ onun Cənubi Qafqazla bağlı ambisiyalarının canlanmasının qarşısını almaq üçün hər cür səy göstərdi. ABŞ-ın 2001-ci ilin məlum sentyabr hadisələrindən sonra öz təhlükəsizliyini qorumaq siyasətindən müdaxilə ilə demokratik dəyərlərin təşviqi siyasətinə kəskin keçid etməsi onun Cənubi Qafqaz siyasətinə də təsir etdi.

Hazırda Rusiya Cənubi Qafqazda mürəkkəb rol oynayır, bir tərəfdən keçmiş sovet ərazilərində öz təsirini bu və ya digər vasitələrlə qorumağa, digər tərəfdən isə cənub sərhədlərinin sabitliyini təmin etməyə çalışır.

İkinci yarımfəsil **"ABŞ və Rusiya arasında Cənubi Qafqazda ikitərəfli münasibətlərin praktiki məsələləri"** adlanır. ABŞ və Rusiya arasında Cənubi Qafqazda ikitərəfli münasibətlərin praktiki məsələlərindən bəhs edir. ABŞ-ın regiondakı praktiki vəzifələrinə aşağıdakılar aid edilə bilər: region dövlətlərinin suverenliyinin qorunması, regional münaqişələrin həlli təşəbbüsləri irəli sürməklə regionda nüfuzunun gücləndirilməsi; Rusiyanın Cənubi Qafqazda tam

---

[23] Стратегия национальной безопасности США. Июль 1994 / –Вашингтон: Белый Дом, –1994. –34 с.

[24] Стратегия национальной безопасности США для нового столетия. Декабрь 1999 / –Вашингтон: Белый Дом, –1999. –49 с.

hökmranlığının qarşısının alınması; həmçinin təhlükəsizlik sahəsində əlaqələrin genişləndirilməsi; region ölkələrin hərbi personalının gücləndirilməsi üzrə birgə fəaliyyətlərin həyata keçirilməsi; terrorizmlə mübarizə.

2000-ci illərin sonlarında ABŞ siyasətinin Cənubi Qafqazda uğursuzluğa düçar olmasının səbəbini regiona lazımi diqqətin verilməməsi, dövlətlərinin hər birinin ayrı-ayrılıqda reallıqlarını və özünəməxsus xüsusiyyətlərini nəzərə alınmaması, regiondakı münaqişələrin lazımi səviyyədə qiymətləndirilməməsi, eləcə də 2008-ci ildə ABŞ və Avropanı bürüyən maliyyə böhranı ilə əlaqələndirmək olar. O dövrdə ABŞ tam şəkildə maliyyə sistemində olan daxili problemlərinin həllinə yönəlmişdi.

2001-ci ildən başlayaraq Rusiyanın region dövlətləri ilə münasibətləri daha praqmatik hərbi-geostrateji siyasət üzərində qurulmuşdu. Müəyyən nöqteyi-nəzərdən bunu Rusiyanın NATO-nun genişlənməsinə müdafiə reaksiyası kimi qiymətləndirmək olar. Ekspertlərin fikrincə, ABŞ və Rusiya arasında elan edilmiş "reset" onların münasibətlərinin taktikasını dəyişməmiş, onu sadəcə gizli fazaya keçirmişdi. XXI əsrin əvvəllərində isə münasibətlər tədricən yenə də əvvəlki qarşıdurma vəziyyətinə qayıtmağa başlamışdı. ABŞ Rusiya timsalında yeni güclü oyunçusunun dünya siyasətinə geri dönüşünü qəbul etmək istəmir, onun postsovet məkanına təsirinin genişlənməsini məhdudlaşdırmağa davam edirdi. Rusiya da öz növbəsində hər hansı digər gücün onun keçmiş təsir dairələri üzərində hökmranlığını qəbul etməkdən imtina edirdi və bunu milli dövlət maraqlarına təhlükə hesab edirdi. 2008-ci ilin avqust hadisələri, Krımın ilhaqı ilə başa çatan 2014-cü il Ukrayna böhranı və 2022-ci ildə Ukrayna müharibəsi Rusiyanın milli maraqların qorunmasında radikal addımlar atmağa hazır olduğunu sübut etdi. Rusiya hakimiyyətinə yaxşı məlumdur ki, ABŞ və NATO-ya Rusiya üçün həyati əhəmiyyət kəsb edən regionlarda söz sahibinə çevrilmək imkanı verilsə, Cənubi Qafqaz və Qara dəniz üzərində Rusiyanın nüfuzu itiriləcəkdir.

Rusiyanın bu cür sərt və qətiyyətli siyasəti ilə müqayisədə ABŞ-ın Cənubi Qafqaz siyasətində qətiyyətsizliyi açıq-aşkar müşahidə etmək mümkündür. Məsələn, ABŞ-ın 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsi başladıqdan sonra Rusiyanın ünvanına yalnız bəyanat və tənqidlər yönəltməsi, faktiki olaraq təcavüzkarın qarşısının alınması

üçün heç bir təsirli addım atmaması onun regiondakı nüfuzuna ciddi zərbə vurdu. Həmin proses belə bir təəssürat yaratdı ki, ABŞ Cənubi Qafqaz respublikalarına, hətta var gücü ilə Rusiyanın təsirindən qurtulmağa çalışan Gürcüstana görə Rusiya ilə qarşıdurmaya getmək niyyətində deyildir. Onu da qeyd etmək lazımdır ki, Qərbin region ölkələrinə siyasi və iqtisadi müstəqilliklərini möhkəmləndirməkdə kömək etmək istəyi onları Qərb blokuna daxil etmək istəyindən deyil, daha çox burada Rusiyanın mövqelərini zəiflətmək məqsədindən irəli gəlir.

ABŞ-ın regiondakı nüfuzuna mənfi təsir göstərən onun Cənubi Qafqazdakı münaqişələrə ikili standartlardan yanaşması ilə bağlı idi. O, münaqişələrin həllində deyil, onların sakitləşdirilməsində maraqlıdır. Region ölkələrinə siyasi və iqtisadi müstəqilliklərini möhkəmləndirmək üçün ABŞ tərəfindən edilən kömək də, Rusiya ilə birbaşa qarşıdurmaya getmədən, üçüncü dövlətlər vasitəsilə onun mövqelərini zəiflətmək məqsədlərindən irəli gəlir.

İkitərəfli münasibətlərdə ciddi problemlərin və maraqlar toqquşmasının mövcudluğuna baxmayaraq, ABŞ-Rusiya münasibətlərinin nizama salınması beynəlxalq münasibətlərdə tərki-silah, münaqişələrin qarşısının alınması, terrorizm, iqtisadi əməkdaşlıq kimi sabitliyin və problemlərin həllinin təminatı rolunu oynaya bilərdi.

Bu paraqrafda iddia edilir ki, Cənubi Qafqazdakı mövcud vəziyyət ABŞ tərəfindən yol verilən bir sıra strateji və taktiki səhvlərin və ya ABŞ-ın regionla bağlı son illərdə ümumiyyətlə strateji baxışının olmamasının nəticəsidir. Bu da Qərbin bölgədəki mövqeyini dərindən sarsıdır.

**“ABŞ və Rusiyanın Cənubi Qafqaz dövlətləri ilə iqtisadi və humanitar əməkdaşlığı və onların həyata keçirilməsi mexanizmləri”** adlı ikinci fəsildə hər iki güc mərkəzinin Cənubi Qafqazda iqtisadi və humanitar fəaliyyətləri və onların həyata keçirilmə mexanizmləri haqqında məlumat verilir ki, bu da iqtisadi, enerji, humanitar sahələrdə əlaqələrin prioritetlərini nəzərdə tutur, bu əlaqələrin öncül inkişaf istiqamətləri müəyyənləşdirilir, enerji layihələrindən və onların həyata keçirilməsi yollarından bəhs edilir.

İkinci fəslin birinci yarımfəsli **“ABŞ və Rusiya arasında Cənubi Qafqazda müasir ticarət-iqtisadi münasibətlərin prioritetləri”** adlanır. Təhlillər göstərir ki, ABŞ-Rusiya münasibətlərində siyasi və

təhlükəsizlik məsələləri üstünlük təşkil edir, iqtisadi əlaqələr isə daha az əhəmiyyətə malikdir. İki ölkə arasında zəif iqtisadi əlaqələr siyasətçilərin ticarətdən geosiyasi mübarizə vasitəsi kimi istifadə etmək imkanlarını məhdudlaşdırır. İki ölkə arasında ticarətin həcmi çox kiçik olanda, ölkənin bu əməkdaşlıqdan mənfəəti əhəmiyyətli dərəcədə olmur. Bu qarşıdurma təhlükəsinə də təsir edir, çünki hər iki tərəfin qarşışıdurmadan itirəcəyi çox az şey var.

Bu cür vəziyyət Rusiya, İran, Türkiyə, Avropa və Mərkəzi Asiya arasında strateji əhəmiyyətli ticarət kəsişmə nöqtəsi olan Cənubi Qafqaz üçün imkanlar yaratmaqla yanaşı təhdidlər də doğurur. Aparıcı qlobal və regional oyunçuların strateji maraqlarının toqquşması bir tərəfdən Cənubi Qafqazın daha sürətli siyasi və iqtisadi inkişafına şərait yarada, digər tərəfdən isə regionun onsuz da geniş münaqişə potensialını xeyli artıra bilər.[25]

Bu fəslin ikinci yarımfəsli - **"ABŞ və Rusiyanın enerji maraqları və Cənubi Qafqaz"** adlanır. Bu gün enerji resurslarının artan əhəmiyyəti dövlətlərin, regionların və ümumən dünya güclərinin siyasətini müəyyən edən ən mühüm amillərdən biridir.

SSRİ-nin dağılmasından, Rusiyanın Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətlərinin zəngin karbohidrogen ehtiyatları üzərində inhisarı itirməsindən sonra bu ehtiyatların dünya bazarına nəqli marşrutları məsələsi gündəmə gəlmişdi. Lakin dövlət müstəqilliyini yenidən bərpa etmiş Cənubi Qafqazın əsas neft-qaz istehsalçısı olan Azərbaycan yetərli maliyyə imkanlarına sahib deyildi. Bu ABŞ üçün yeni imkanlar açırdı. Region dövlətlərinin, o cümlədən Azərbaycanın müstəqil şəkildə özünün neft və qaz resurslarını hasil və dünya bazarlarına ixrac etməsinə mane olmağa çalışan Rusiya alternativ təklif etmirdi. O, Xəzərin təkinin işlənməsinə kifayət qədər vəsait yatırmaq iqtidarında deyildi.

Nəticə etibarı ilə Azərbaycan rəhbərliyi seçim qarşısında qaldı – ya Rusiyanın təzyiqinə boyun əyərək, neft-qaz layihələrini qeyri-

[25] Кудряшова, Ю. Государства Южного Кавказа в европейской политике соседства // – Москва: Аналитические записки НКСМИ МГИМО (У) МИД России, –2008. -№ 66, –с.10.

müəyyən müddətə təxirə salmaq, ya da "böyük qardaş"ın fikrinə məhəl qoymayaraq, Qərb korporasiyaları ilə əməkdaşlıq etmək[26].

ABŞ-ın neft və qazın Rusiyadan yan keçməklə yeni marşrutla nəqli ideyası, ilk növbədə, siyasi motivlərə malik idi. Azərbaycan ABŞ-la Rusiya arasında geosiyasi qarşıdurmanın mərkəzinə çevrildi. Azərbaycan Rusiyanın Qara dənizdəki Rusiya limanına vahid neft kəməri çəkmək təklifini rədd edərək, Gürcüstandan keçməklə Türkiyəyə əsas ixrac boru kəmərinin çəkilməsinə nail oldu[27].

Boru kəmərləri Rusiyanın xarici siyasətində ən kəskin siyasi problemə və, eyni zamanda, post-sovet ölkələrinin Rusiyadan daha az asılı olmasını görmək istəyən ABŞ-ın, regionunda dominant mövqeyini saxlamaq uğrunda mübarizəsinin əsas alətlərindən birinə çevrildi. Azərbaycan üçün isə neft və qaz hasilatının artırılması və ixracı ölkənin qarşısında duran sosial-iqtisadi problemlərin aradan qaldırılmasının əsas vasitələrindən biri və birincisi idi. Bu şəraitdə maliyyə imkanlarının məhdud olması xarici investorların ölkəyə cəlb edilməsini strateji əhəmiyyətli qərara çevirdi[28].

1994-cü il "Əsrin müqaviləsi" imzalanması ilə Azərbaycan və Gürcüstan da daxil olmaqla bütün Xəzər regionu ABŞ-ın həyati maraqları zonasına çevrildi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ABŞ üçün Rusiyanın region üzərində təsirini azaldan və İranın ərazisindən keçməyən ideal variant idi.

Dövlətimizin enerji siyasətində mühüm məqamlarından biri "Şahdəniz" qaz yatağının kəşfindən sonra qazın Avropaya nəqli üçün marşrutun seçilməsi qərarı oldu. Trans-Adriatik boru marşrutu üzrə təbii qazın maneəsiz çatdırılmasının mümkünlüyü və tərəfdaş ölkələrlə dostluq əlaqələrinin möhkəmləndirilməsi təkcə Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz regionu, xüsusən də neft və qaz kəmərlərinin keçdiyi Gürcüstan üçün böyük inkişaf imkanları yaratdı. Trans-Anadolu Boru Kəmərinin (TANAP) çəkilməsi Avropa üçün qaz

---

[26] Алиев И. Г. Каспийская нефть Азербайджана / И. Г. Алиев -Москва: Известия, -2003. -712 с.

[27] Бжезинский Зб., Великая Шахматная доска / Зб. Бжезинский. -Москва: Международные отношения -1998. -128 с.

[28] Azərbaycan nefti: [Elektron resurs] / Azerbaijan.az, -2020. URL: https://azerbaijan.az/related-information/267

tədarükünün maksimal diversifikasiyasına yönəlmiş enerji strategiyası üçün strateji əhəmiyyətli layihədir.

Xəzər dənizi regionundan enerji ehtiyatlarının dünya bazarlarına daşınmasında əsas tranzit ölkəyə çevrilən Gürcüstanın da həm ABŞ, həm də Rusiya üçün əhəmiyyəti ikiqat artdı.Ermənistan Azərbaycan ərazilərini işğal etməsi səbəbindən reallaşdırılan nəhəng regional layihələrdən kənarda qaldı. "Oyundakənar vəziyyət"ə düşməsi Ermənistanın Rusiya yönəlməsinə səbəb oldu.

**"ABŞ və Rusiyanın Cənubi Qafqaz dövlətləri ilə humanitar fəaliyyətinin əsas istiqamətləri"** adlanan üçüncü yarımfəsildə qeyd olunur ki, SSRİ süqutundan bir müddət sonra ABŞ tərəfindən yeni müstəqil dövlətlərə humanitar yardım siyasətinin hazırlanmasına başlanıldı. Bu siyasət ABŞ-ın onlara müxtəlif formalarda yardım göstərməsini nəzərdə tuturdu. Lakin bir müddət sonra ABŞ-dakı erməni lobbisinin təsiri ilə Cənubi Qafqazın ərazi və əhalisinin sayına görə ən böyük dövləti olan Azərbaycan Respublikasına humanitar yardımları qadağan edən bir qərar qəbul edildi. 1992-ci il oktyabrın 24-də ABŞ Konqresi tərəfindən düzəlişlərlə Azadlığa Dəstək Aktı (FSA) imzalandı. Dövlət müstəqilliyini yenicə bərpa edən Azərbaycan Respublikası ədalətsiz 907-ci düzəlişin qəbulu nəticəsində ABŞ-dan birbaşa hökumət yardımı almaq imkanını itirmiş, böyük çətinliklərlə üzləşmişdir. ABŞ-dan Azərbaycana müxtəlif formalarda gələn yardımlar qeyri-hökumət təşkilatları vasitəsilə həyata keçirilirdi. Təbii ki, bunu qonşu Ermənistanın aldığı həcmlə müqayisə etmək mümkün deyildi. Bir daha vurğulanmalıdır ki, Vaşinqtonun Qarabağ münaqişəsində obyektiv vasitəçi olmasının qarşısını alan Azadlığa Dəstək Aktına 907-ci düzəlişin Konqres tərəfindən qəbul edilməsində güclü erməni lobbisi və onun uğurlu fəaliyyəti həlledici rol oynayıb. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişindən və 1994-cü ildə ABŞ-ın neft şirkətləri ilə neft müqavilələri imzalanmasından sonra 907-ci düzəlişə qarşı fəaliyyət daha da gücləndi. ABŞ-ın Cənubi Qafqaz dövlətləri ilə bağlı xarici siyasətinə nəzər salsaq, doktrina və strateji sənədlərlə yanaşı, ABŞ-ın xarici siyasətinin formalaşmasına az təsiri olmayan lobbiçiliyə də diqqət yetirmək lazımdır. Azərbaycan diplomatiyası düzəlişi ləğv edə bilməsədə ona moratorium qoyulmasında nail olundu.

Dissertasiya işinin üçüncü fəslində "**ABŞ-Rusiya münasibətləri**

**və Cənubi Qafqazda ərazi münaqişələri”** təhlil edilir. Bu fəsildə Cənubi Qafqazda ərazi münaqişələrinə ABŞ və Rusiyanın yanaşması dərindən təhlil edilmiş, münaqişələrin həlli istiqamətində tərəflərin hər birinin siyasətinin qiymətləndirilməsi aparılmışdır. ABŞ və Rusiyanı Cənubi Qafqaz siyasətində əllərində saxlamağa çalışdıqları mühüm təsir vasitələrindən biri Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində yaranmış Qarabağ, Gürcüstan ərazisidəki Abxaziya, gürcü-osetin münaqişələrinin tənzimlənməsində vasitəçi kimi iştirakçılıq olmuşdur.

**“Ermənistan-Azərbaycan münaqişəsinin həllində ABŞ və Rusiyanın mövqeyi”** adlanan ilk yarımfəslində qeyd edilir ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü Sovet İttifaqının dağılmasından sonra ən qanlı münaqişələrdən birinin əsasını qoymuşdur. 30 ilə yaxın bir müddətdə münaqişənin siyasi-diplomatik vasitələrlə nizamlanmasına nail olunmaması Cənubi Qafqaz regionunda qeyri-sabitliyə gətirib çıxarırdı. Bu münaqişənin həllində maraqlı olmayan Minsk Qrupunun üç həmsədrindən biri kimi Rusiya Cənubi Qafqaz dövlətləri üzərində SSRİ zamanı malik olduğu təsiri saxlamağa çalışırdı.

1997-ci ildən ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi çıxış edən ABŞ Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində məqsədyönlü addımlar atmağa çalışsa da, bir tərəfdən Rusiya amili, digər tərəfdən ABŞ-dakı erməni lobbiçiliyi onun tam obyektiv mövqe tutmasına mane olurdu. Nəticədə Bill Klinton və Corc Buş administrasiyaları dövründə Qarabağ münaqişəsinin həllində ABŞ ATƏT-in Minsk qrupunun üç həmsədrindən biri kimi güclü əks-sədaya malik olan təşəbbüs irəli sürməmişdi. ABŞ-ın münaqişəyə yanaşmada fəallıq nümayiş etdirmədiyini və Rusiyanın prosesə nəzarət səylərinə qarşı çıxa bilmədiyini bu ölkənin ATƏT-in Minsk Qrupundakı nümayəndəsi olmuş səfir Con Mareska da müsahibələrindən birində qeyd etmişdi[29].

Onu da qeyd etmək lazımdır ki, Ermənistanın birinci prezidenti

---

[29] Blair B. Forging a Lasting Peace. The Nagorno-Karabakh Conflict. An Interview with John J. Maresca, Former US Ambassador to the OSCE // - Baku:Azerbaijan International. -1996. -p.52.

Levon Ter-Petrosyanın münaqişənin həlli ilə bağlı mövqeyi kifayət qədər obyektiv olub. O Ermənistan hakimiyyəti uzun illər ərzində beynəlxalq ictimaiyyəti ələ salaraq Qarabağ probleminin tezliklə həllinə süni maraq nümayiş etdirdiyini, lakin əslində prosesi ləngitmək və pozmaq məqsədi olduğunu açıq bəyan etmişdi.[30].

2000-ci ildən başlayaraq Rusiya, Azərbaycan və Ermənistan prezidentləri arasında münaqişənin həlli üzrə üçtərəfli görüşlər intensivləşdi. 2008-ci il noyabrın 2-də Moskva Bəyannaməsinin imzalanması ilə nəticələndi[31]. Bu bəyannaməyə əsasən, tərəflər ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında birbaşa dialoqu davam etdirməklə, Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsip və normaları əsasında siyasi yolla həllinə dəstək verəcəklərini bəyan etdilər. Lakin ABŞ kimi, Rusiyanın da bu cür təşəbbüsləri bəhrə vermədi. Bunun həm obyektiv, həm də tərəflərin regiondakı maraqlarından doğan subyektiv amillər təsir göstərirdi.

2020-ci il sentyabrın 27-də qoşunların təmas xəttində Ermənistan tərəfinin çoxsaylı təxribatlarından sonra yenidən güclənən münaqişə daha genişmiqyaslı müharibəyə çevrildi. 44 günlük II Qarabağ müharibəsi başladı. ABŞ-da həmin ərəfədə prezident seçkilərinə hazırlıq dövrü olduğundan rəsmi Vaşinqtonun proseslərə təsir etmək səyləri nəticəsiz qaldı. Azərbaycanın regionda sürətli və əhəmiyyətli qələbələr qazandığını görən Rusiya müharibənin dayandırılması üçün dəfələrlə cəhd göstərdi. Bunda məqsəd həm də region üzərində özünün təsir imkanlarını qoruyub saxlamaq idi. Nəhayət, 2020-ci ilin noyabrında Rusiya Federasiyası və Azərbaycan Respublikası prezidentlərinin, Ermənistan baş nazirinin iştirakı ilə üçtərəfli bəyanat imzalandı. Sənəd Ermənistan-Azərbaycan münaqişəsinin sona çatması istiqamətində atılan ilk əhəmiyyətli addım oldu. Bəyanatda bildirilirdi ki, Rusiya sülhməramlı qüvvələri 5 il müddətinə Qarabağda yerləşdiriləcək. Bununla Moskva regionda təsir imkanlarını qoruyub saxlamağa çalışırdı.

Sonrakı aylarda çoxsaylı yüksək səviyyəli görüşlər keçirildi.

---

[30] Ter-Petrossian L. Armenia's Future, Relations with Turkey, and the Karabagh Conflict// Edited by Arman Grigoryan/ Armenian National Congress, USA Palgrave Macmillan, -2018; -p.62

[31] Əliyev İ. İnkişaf – məqsədimizdir. [111 cilddə] / İ. Əliyev -Bakı:Azərnəşr. -23-cü kitab -2016, -392 s.

Lakin Ermənistan münaqişənin tam həlli üçün Azərbaycan ərazilərindəki silahlı birliklərini çıxarmaq şərtinə əməl etmədi. Bunda ABŞ və Rusiyadakı müəyyən siyasi qüvvələrin Ermənistana verməyə çalışdığı dəstək də əhəmiyyətli rol oynadı. Çoxsaylı yüksək səviyyəli, amma heç bir irəliləyiş əldə etməyən danışıqlar prosesindən sonra, eləcə də 2020-ci il bəyanatının şərtlərinin Ermənistan tərəfindən kobud şəkildə pozulması Azərbaycanı 2023-cü ilin sentyabr ayında lokal xarakterli antiterror əməliyyatı keçirməyə vadar etdi. Bununla da Azərbaycan Qarabağ üzərində tam nəzarəti bərpa etdi.

Bir məsələni də qeyd etmək lazımdır ki, Ermənistanın birtərəfli şəkildə Qərbə meyillənməsi, Rusiya-Ermənistan münasibətlərinin gərginləşməsi, Rusiyanın başının Ukrayna ilə müharibəyə qarışması da münaqişənin bu şəkildə həllinə təsir göstərmişdir.

Üçüncü fəslin ikinci yarımfəsli **"Abxaziya və Cənubi Osetiya münaqişələrinin həllində ABŞ və Rusiyanın siyasəti"** adlanır. Məlumdur ki, Cənubi Qafqazda digər qanlı münaqişələr Gürcüstan ərazisində - Abxaziyada və Tsxinvali regionunda osetinlərin yaşadığı bölgədədir. Münaqişəni aşağıdakı hadisələr ardıcıllığı ilə təsvir etmək olar: 1991-1992-ci illərin birinci Cənubi Osetiya müharibəsi və 2008-ci il Rusiya-Gürcüstan müharibəsi. Təhlillər göstərir ki, Ağ Ev Administrasiyası həmişə Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləmiş və müdafiə etmişdir. Abxaziya və Cənubi Osetiyada öz maraqları olan Rusiya 90-cı illərdə bu münaqişələrdə vasitəçi dövlət rolunda çıxış etmiş və sülhməramlı adı altında hərbi birliklərini buraya göndərmişdi. Belə ki, 1992-ci ildə imzalanmış Soçi sazişi Tsxinvali regionunda Rusiya, Gürcüstan və osetin hərbçilərindən ibarət qüvvələrin yerləşdirilməsi ilə nəticələnmişdi.

Abxaziya münaqişəsinin sülh yolu ilə nizamlanması üzrə danışıqlar BMT-yə həvalə edilsə də, burada da Rusiya vasitəçi rolunda çıxış etmişdi. BMT Təhlükəsizlik Şurasının 1994-cü il yanvar tarixli 896 saylı qətnaməsində aydın şəkildə bildirilir ki, Abxaziyanın statusu "Gürcüstan Respublikasının suverenliyi və ərazi bütövlüyü"nə uyğun olaraq müəyyən edilməlidir[32].

Gürcüstanın Rusiyadan narazılığı 1990-cı illərin ortalarından

[32] Миссия Организации Объединенных Наций по наблюдению В Грузии МООННГ// 24 августа 1993 –Нью Йорк. -1993. – 23 с.

başlayaraq Qərbin Cənubi Qafqaza marağının artması və regionunun neft və qazının ehtiyatlarının dünya bazarına müstəqil tədarükü üçün artan əhəmiyyəti ilə üst-üstə düşdü. Qərb əmin idi ki, NATO-ya tam üzvlük daxil olmaqla, gələcək inteqrasiya perspektivi Gürcüstanın daxili münaqişələrin həllində hərbi gücdən istifadə etmək istəyinin qarşısını alacaq, çünki bu, Gürcüstanın Şimali Atlantika Təşkilatına üzvlük perspektivlərinə xələl gətirə bilərdi.

2003-cü ildən etibarən Gürcüstanla Rusiya arasında gərginlik artmağa başladı. 2008-ci ilin yanvarında Rusiyanın Rusiya-NATO Şurasındakı keçmiş səfiri Dmitri Roqozin xəbərdarlıq etmişdi ki, Gürcüstanın NATO-ya üzv olması Qafqaz regionunda sabitliyi pozacaqdır[33]. Digər Rusiya rəsmiləri NATO-nun Gürcüstanın Üzvlüyə dair Fəaliyyət Planında iştiraka dəvət edilməsinin Rusiyanın Abxaziya və qondarma “Cənubi Osetiya”nı tanımasına və həmin bölgələrdə rus qoşunlarının yerləşdirilməsinə səbəb olacağını fikrini ifadə etmişdilər[34].

2008-ci ilin avqustunda, Rusiya ilə Gürcüstan arasında münaqişə kəskinləşəndə, Buş administrasiyasının rəsmiləri münaqişənin genişmiqyaslı müharibəyə çevrilməsinə imkan verməmək üçün Tbilisi hökumətinə xəbərdarlıq etdiklərini qəti şəkildə bildirdilər. Beşgünlük müharibən sonra Rusiya prezidenti Dmitri Medvedev bəyan etdi ki, “*Rusiyanın Gürcüstan tərəfini sülhə məcbur etmək əməliyyatının məqsədinə nail olunub və əməliyyatın dayandırılması barədə qərar qəbul edilib.... Təcavüzkar cəzalandırılıb*”[35]. Rusiya göstərdi ki, o, Gürcüstanda ABŞ-ın xeyrinə öz maraqlarından əl çəkməyəcəkdir. ABŞ isə bu prosesdə Gürcüstana real hərbi-siyasi dəstək vermədi.

---

[33]Nichol, J. “Georgia (Republic) and NATO Enlargement. Issues and Implications” //CRS Report for Congress. -7 March 2009, p. 4. URL: https://www.researchgate.net/publication/306091790_Georgia_Republic_and_NATO_Enlargement_Issues_and_Implications

[34]Nichol, J. “Georgia (Republic) and NATO Enlargement. Issues and Implications”. //CRS Report for Congress. -7 March 2009, p. 5. URL: https://www.researchgate.net/publication/306091790_Georgia_Republic_and_NATO_Enlargement_Issues_and_Implications

[35]Медведев завершил принуждение Грузии к миру «Агрессор наказан!»: [Электронный ресурс] / Комсомольская правда, –2008. URL: www.kp.ru/daily/24145/362333/

Təhlillər belə bir müddəa irəli sürməyə imkan verir ki, Rusiya Qafqazda gələcəkdə də rolunu qoruyub saxlamağa çalışacaqdır. Bölgədəki əvvəlki nüfuzunu tamamilə itirməmək üçün ABŞ Avropa dövlətləri ilə birlikdə sülh sazişinin imzalanması prosesini təşviq etmək üçün xeyli səy göstərməlidir.

## NƏTİCƏ

Nəticə hissəsində tədqiqatlar nəticəsində əldə edilmiş əsas elmi nəticələr əksini tapmışdır. Qeyd edilmişdir ki, Cənubi Qafqaz əsrlər boyu dünya dövlətlərinin ciddi xarici təsirlərinə məruz qalmış regiondur. Regionda mürəkkəb geosiyasi mənzərə hələ də davam edir. Burada çoxsaylı dövlətlər nüfuz uğrunda mübarizə aparır və öz maraqlarını güdürlər. Rusiya region üzərində təsirlərini ciddi cəhdlə qorumağa çalışır. Lakin Ukraynadakı müharibədən istifadə edərək Qərb, xüsusən də ABŞ, Rusiya siyasətinin hakim olduğu bütün regionlarda eləcə də Cənubi Qafqaz və Mərkəzi Asiyada öz təsirini artırmağa cəhd edir. Qərb bununla Rusiyanı daha da zəiflətməyə və enerji müstəqilliyini təmin etməyə çalışır. ABŞ əsasən davam edən islahatları dəstəkləməyi, Qafqazda münaqişələrin eskalasiyasının qarşısını almağı, Rusiyanın həyatı maraqları zonasından kənarda qalmağı və region dövlətlərinin Rusiyanın təsirindən çıxmağa dəstək verəcəklərinə ümid bəsləməməlidir. Amma eyni zamanda, regiondan tamamilə imtina etmək iddialı Rusiya siyasətinə daha çox təsir alətləri vermək demək olardı.

Müəllif belə qənaətə gəlir ki, əgər Rusiyaya postsovet məkanına, xüsusən də Cənubi Qafqaza nəzarət verilərsə, o, çox güman ki, Şərqi Avropa ölkələrini öz təsir zonasında saxlamaqdan çəkinəcək. ABŞ güzəştə getməli, xüsusən də Gürcüstan və Ukrayna ilə bağlı Rusiyanın həyati maraqları sferasına müdaxilə etməməlidir. Belə olan halda münaqişənin genişlənməsinin qarşısını almaq mümkün olardı.

Çox ehtimal ki, bu ssenaridə Rusiyanın Cənubi Qafqazda təsirinin artması və ABŞ maraqlarının azalması olacaq. Onu da qeyd etmək lazımdır ki, regiondakı enerji və tranzit layihələrinin dəstəklənməsi uzun illər ABŞ-ın Rusiyanın bölgədəki təsirini azaltması üçün əsas vasitələrdən biri olmuşdur.

İstisna deyildir ki, hazırkı şəraitdə Cənubi Qafqaz uğrunda ABŞ və Rusiya mübarizəsinin gərginləşməsi Azərbaycan, Gürcüstan və Ermənistan üçün əlavə problemlər yarada bilər. Cənubi Qafqaz dövlətlərinin sabitliyi bu böyük dövlətlərin sabitliyi ilə bağlıdır. Bunu nəzərə alaraq region dövlətlərinin bir sıra regional problemləri özlərinin müzakirə və həll etmələri, qarşıdurmaları aradan qaldırmaları, iqtisadi əlaqələri gücləndirmələri kənar güclərin regionda təsir imkanlarını azalda bilər. Bu region sülh məkanına, azad ticarət zonasına çevrilməli, xalqlar və dövlətlər arasında yanan qarşıdurmaların qarşısı alınmalıdır. Belə olan halda region real perspektivlər qazanacaq. Regiondakı bütün münaqişələr həll olunarsa, üç müstəqil dövlət daha sıx inteqrasiya edər, Cənubi Qafqazın dünyada rolu və yeri əhəmiyyətli dərəcədə artar, ABŞ və Rusiya artıq öz rolunu bərpa etmiş və gələcək real perspektivlərə malik olan region dövlətləri ilə əməkdaşlıq etmiş olar.

**Dissertasiyanın əsas məzmunu əsərlərdə dərc edilmişdir:**


1. Военно-политические интересы в регионе Южного Кавказа // "Heydər Əliyev Azərbaycanın milli dövlətçilik siyasətinin banisidir" doktorant və dissertantların elmi konfransı, Dövlət İdarəçilik Akademiyası, –2014. –s.200-210.
2. Энергетическая Политика В Регионе Южного Кавказа // –Bakı: Dövlət idarəçiliyi jurnalı, –2015. №2, –s. 245-252.
3. Борьба мировых держав за трубопроводы на Южном Кавказе // –Bakı: Dövlət idarəçiliyi jurnalı, –2018. №2, –s. 289-297.
4. Оккупационная политика Армении на Южном Кавказе // "Qafqazda deportasiyalar" respublika elmi konfransının tezisləri, –Bakı: AMEA Qafqazşünaslıq İnstitutu, –2018. –s.142-143.
5. Столковение интересов США и России. Южный Кавказ // Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olumuş "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" mövzusunda beynəlxalq elmi konfransın materialları, –Bakı: AMEA Qafqazşünaslıq İnstitutu, –2018. –s. 245-252
6. Посредническая роль России в урегулировании Южно-осетинского конфликта // –Bakı: Sivilizasiya, –2019. №4 –с. 22-26
7. Azerbaijan in the pipeline politics // Qafqazşünasların II Beynəlxalq Forumu, –Bakı: AMEA Qafqazşünaslıq İnstitutu, – 2019 –s. 320-326.

8. The role of the United States in resolving territorial disputes, its mediation role in negotiation processes // –Самара: Научный аспект, –2019, №2, т. 2,–с. 234-242. **(Rusiya).**
9. Гуманитарные связи между США и Азербайджаном после распада СССР// «Общественные науки в современном мире: политология, социология, философия, история» XXIII международной научно-практической конференция, –Москва, –2019. –с. 37-42. **(Rusiya).**
10. Особенности торгово-экономического развития Азербайджана после распада СССР // –Москва: Вопросы политологии, –2020. № 2(54), –с. 628-634. **(Rusiya).**
11. Теоретические вопросы национальной безопасности США в американо-российских отношениях // –Bakı: Dövlət idarəçiliyi, –2020. №2, –s. 289-297.
12. Посредническая Роль России В Урегулировании Нагорно-Карабахского Конфликта // –Bakı: Geostrategiya, –2020. №1 (55), –s. 22-27
13. Посредническая Роль США В Урегулировании Нагорно-Карабахского Конфликта // -Bakı:Qafqazşünaslıq elmi-nəzəri jurnalı, -2021. №1 (2), -S.-65-76
14. Борьба интересов США и России в Разрешении Нагорно-Карабахского Конфликта // «Cənubi Qafqazda ərazi-sərhəd problemləri: Qars müqaviləsindən Şuşa bəyannaməsinə» respublika elmi konfransının tezisləri, -Bakı: AMEA Qafqazşünaslıq İnstitutu, –2021. –s.112-114.
15. Новые геополитические реалии на Южном Кавказе // –Bakı: "Qafqazşünaslıq" elmi-nəzəri jurnalı, –2023. №1 (4), –s.18-24.
16. Возобновляемые источники энергии как возможность реинтеграции на Южном Кавказе // «Cənubi Qafqaz: mövcud vəziyyət və perspektivləri» respublika elmi konfransının tezisləri,–Bakı: AMEA Qafqazşünaslıq İnstitutu, –2023, –s. 88-89.
17. Геополитическое влияние Европейского Союза на Южный Кавказ // –Bakı: Dövlət idarəçiliyi jurnalı, –2023. №3 (83), –s. 237-246.

Dissertasiyanın müdafiəsi “04” “04” 2024-cü il tarixində saat “11⁰⁰”-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Lermontov küçəsi 74, AZ1000, Bakı, Azərbaycan

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilib.

Avtoreferat “01” “03” 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.03.2024
Kağızın formatı: 60x841/16
Həcmi: 38770
Tiraj: 30 ədəd